# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (Çıxarışlar)

11 iyul 2000-ci il tarixli 906-IQ nömrəli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir (2015-ci ildə olan əlavə və dəyişikliklərlə).

**Maddə 134.** Hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsi

Hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə - yüz manat miqdarında cərimə edilir.

**Maddə 140.** Dəmir yol nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsi

Dəmir yol nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə - xəbərdarlıq edilir və ya beş manatdan on beş manatadək miqdarda cərimə edilir.

**M a d d ə 140-1.** Metropolitendən istifadə qaydalarının pozulması

**140-1.4.** Eskalatorun sürahisini çıxarmağa, zərurət olmadan "Stop" açarından istifadə etməyə, stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda siqaret çəkməyə, qatarın hərəkəti zamanı vaqonun qapılarını açmağa, qatarın yola düşməsini ləngitməyə, özbaşına dəmir yoluna düşməyə, qatarın idarəetmə kabinəsinə, xidməti-texniki otaqlara, ventilyasiya şaxtası köşklərinə, tunellərə və metropolitenin işçiləri üçün nəzərdə tutulan çəpərlənmiş ərazilərə daxil olmağa, açıq oddan, pirotexniki qurğulardan (fişəng, partlayıcı və sair) istifadə etməyə görə - əlli manat miqdarında cərimə edilir.

**Maddə 148.** Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsi

Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə - xəbərdarlıq edilir və ya yeddi manatdan on üç manatadək miqdarda cərimə edilir.

**M a d d ə 150-2.** Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması

**150-2.1.** Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulmasına, yəni:

**150-2.1.4.** Müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkilməsinə görə - qırx manatdan əlli manatadək miqdarda cərimə edilir.

**Maddə 236.** Etil (yeyinti) spirti və alkoqollu içkilər və ya tütün məmulatı ticarəti qaydalarının pozulması

**236.1.** Ticarət və ya ictimai iaşə müəssisələrinin işçiləri tərəfindən etil (yeyinti) spirti və alkoqollu içkilərin və ya tütün məmulatlarının satışı qaydalarının pozulmasına görə - on manatdan otuz beş manatadək cərimə edilir.

**236.2.** Ticarət və ya ictimai iaşə müəssisələrinin işçiləri tərəfindən etil (yeyinti) spirti və alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə - on beş manatdan qırx manatadək miqdarda cərimə edilir.